# QƏRAR № 2/5

## 2025-ci il yanvarın 29-na təyin edilmiş bələdiyyə seçkilərində Yeni Azərbaycan Partiyasının məşvərətçi səs hüquqlu üzvünün təsdiq edilməsi barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının qərarı

2025-ci il yanvarın 29-na təyin edilmiş bələdiyyə seçkilərində Yeni Azərbaycan Partiyası tərəfindən Məhəmməd Yusif oğlu Məhərrəmov Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (bundan sonra - Mərkəzi Seçki Komissiyası) məşvərətçi səs hüquqlu üzv təyin edilmiş və onun üzvlüyünün təsdiq edilməsi üçün müvafiq sənədlər Mərkəzi Seçki Komissiyasına təqdim olunmuşdur.

Mərkəzi Seçki Komissiyası bununla əlaqədar qanunvericiliklə nəzərdə tutulmuş müddətdə və qaydada müvafiq araşdırma aparıb, M.Y.Məhərrəmovun məşvərətçi səs hüquqlu üzv kimi təsdiq edilməsi üçün hüquqi əsasların olmasını müəyyən etmişdir.

Azərbaycan Respublikası Seçki Məcəlləsinin (bundan sonra - Seçki Məcəlləsi) 223-cü maddəsinə görə bələdiyyə seçkiləri zamanı bələdiyyələrin yarısından çoxunda namizədlər irəli sürən siyasi partiyalar Mərkəzi Seçki Komissiyasının tərkibinə bir məşvərətçi səs hüquqlu üzv təyin edə bilərlər.

Mərkəzi Seçki Komissiyası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 21.1-ci, 21.3-cü, 28.2-ci, 28.4-cü və 223-cü maddələrinə əsasən **qərara alır:**

1. 2025-ci il yanvarın 29-na təyin edilmiş bələdiyyə seçkilərində Məhəmməd Yusif oğlu Məhərrəmov Mərkəzi Seçki Komissiyasında Yeni Azərbaycan Partiyasının məşvərətçi səs hüquqlu üzvü kimi təsdiq edilsin.
2. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

Sədr **Məzahir Pənahov**
Katib **Arifə Muxtarova**
Katib **Mikayıl Rəhimov**

*08.01.2025*

Azərbaycan. - 2025.- 9 yanvar (№ 3).- S.4.